# Malatyada dağıntılar altında qalan azərbaycanlı tələbələrin hamısının meyitləri tapılıb

Malatyada dağıntılar altında qalan dörd azərbaycanlı tələbənin hamısının cəsədi tapılıb.

AZƏRTAC xəbər verir ki, meyitlərin üzərində tibbi ekspertiza aparılıb və onların Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə olduğu müəyyən edilib.

Fevralın 6-da Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanları arasında Malatya şəhərindəki İnönü Universitetinin tələbələri olan Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə haqqında zəlzələ baş verdiyi vaxtdan dünənədək heç bir məlumat yox idi. Onların yaşadığı bina zəlzələnin təsirindən ağır dərəcədə dağıntıya məruz qalıb.

Azərbaycan.- 2023.- 15 fevral.- S.7.